

# Heydər Əliyev - “Xalqın adamı”

**İstanbulda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş “Xalqın adamı” adlı tədbir keçirilib.**

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, Türkiyə-Azərbaycan Dərnəklər Federasiyası və İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə siyasi partiyaların, vətəndaş cəmiyyətinin nümayəndələri və soydaşlarımız iştirak ediblər.

Komitə sədrinin birinci müavini Valeh Hacıyev çıxışında ölkəmizin və türk dünyasının qüdrətli liderlərindən biri olan Heydər Əliyevin həyat və fəaliyyəti barədə danışıb. Dahi şəxsiyyətin “bir millət, iki dövlət” adlandırdığı Türkiyə-Azərbaycan dostluğundan və qardaşlığından söz açıb.

Tədbirdə çıxış edən İnsan Haqları, Təhsil, Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri Məhşəti Şərif, Vətən Partiyasının sədri Dr. Doğu Perinçek, Ədalət və İnkişaf Partiyasının üzvü Metin Külünk yeni dünya düzənində ölkələrimizin yerindən və rolundan danışıblar, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Heydər Əliyevin mübarizə həyatının bənzərliyinə diqqəti cəlb ediblər.

Xalq qəzeti .- 2023.- 6 iyun.- S.5.